HƏYAT BİLGİSİ

DƏRSLİK



1

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

NƏRGİZ CABBARLI
GÜLSƏN SOLTANOVA

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün

HƏYAT BİLGİSİ

fənni üzrə

DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

AİLƏ

1. Ailə 6
2. Kollektiv 8
3. Məktəb qaydaları 10
4. Gün rejimi 12

DÜNYA

5. Canlılar və cansızlar 14
6. Yaşamaq üçün vacib olanlar 16
7. Canlıların yaşadığı yerlər 18
8. Cansızların əlamətləri 20
9. Fəsillər 22
10. Təbiət 24
11. Təmiz ətraf mühit 26
Layihə. Gəlin quş yuvası düzəldək 28



DÖVLƏT

12. Hüquqlar 30
13. Dövlət rəmzləri 32
14. Pullar 34
15. Büdcəni qoruyaq 36
Layihə. Gəlin kitabça tərtib edək 38

DAVRANIŞLAR

16. Biz necə davranmalıyıq 40
17. Yanlış davranışlar 42
18. Yaxşı xüsusiyyətlər 44
19. Xoşagəlməz xüsusiyyətlər 46
Layihə. Yurdumuza bahar gəlir 48
20. Din 50
21. İnsanlara hörmət və qayğı 52
Layihə. Sehrli torba 54

SAĞLAMLIQ

22. Sağlam həyat 56
23. Geyimlər və sağlamlıq 58
24. Ehtiyatlı olaq 60
25. Təhlükəli avadanlıqlar 62
26. Nəqliyyat növləri 64
27. Yol hərəkəti qaydaları 66
28. Təbii fövqəladə hadisələr 68
29. Qəzalardan müdafiə 70

Ədəbiyyat siyahısı 72

Şərti işarələr:

Araşdıraq, müşahidə edək, düzəldək, çəkək

Gəlin düşünək

Sual və tapşırıqlar

Müəllimin oxuduğu mətn

Açar sözlər

Maraqlıdır

Nəticə çıxaraq

1 AİLƏ



Çətində arxa,
Darda köməkdir.
Ailə dostluq,
Birlik deməkdir.

ailə
valideyn
övlad

Şəkildə gördüklərinizi haqqında danışın. Sizcə, nə üçün bu insanların birliyinə ailə deyirik?

Ailə kimlərdən ibarətdir? Ailə üzvlərini bir-birinə hansı hisslər bağlayır? Ailə üzvlərinin hansı vəzifələri var?

Gördüklərinizin haqqında danışın. Siz bu şəkildə nəyi dəyişdirərdiniz? Niyə?

GƏLİN DÜZƏLDƏK

Birlikdə ailə ağacı düzəldin və ailə üzvlərinizin şəkillərini onun üzərində yerləşdirin.

Valideynləri olmayan uşaqların qayğısına dövlət qalır. Bu uşaqlar onları sevən insanların əhatəsində böyüyürlər.

Ailənizlə birlikdə keçirdiyiniz hansı anları maraqlı hesab edirsiniz? Bu haqda danışın.

Ailə bir-biri ilə qohumluq bağları olan insanların birliyidir. Ailə hər kəsin həyatında böyük rol oynayır.

2 KOLLEKTİV



İnsanlar birlikdə çalışmağı, əylənməyi sevirlər.

kollektiv
birlik
vəzifə

Şəkildə gördüklərinizi haqqında danışın. İki şəkil arasında fərq nədədir?

Aşağıdakı şəkildə təsvir edilənləri necə adlandıra bilərik?

Birlikdə çalışmaq, işləmək, bir-birimizə yardım etmək nə üçün vəzifəmiz hesab olunur?

Kollektivdə hər kəs çalışdığı zaman kiminsə kənarda qalması nə üçün düzgün deyil? Sizcə, bu oğlanı işə necə cəlb etmək olar?

GƏLİN ARAŞDIRAQ

Hansı şəkildəkiləri kollektiv adlandıra bilərik? İşarələyin.

İnsanlar lap qədimdən birlikdə işləməyi və əylənməyi seviblər. Qobustan qayalarındakı yallı gedən insanların şəkli buna sübutdur.

Gəlin birlikdə “Yallı” rəqsini oynayaq. Bu rəqs qədimlərdən bəri xalqımızın birliyini ifadə edir.

Güc birlikdədir. Ən çətin işlərin öhdəsindən asanlıqla gəlmək üçün insanların birlikdə işləməsi vacibdir.

3 MƏKTƏB QAYDALARI



Məktəbdə əməl etməli olduğumuz qaydalar var.

məktəb
qayda

Şəkilləri müqayisə edin.

Məktəb qaydalarına əməl etməyən şagirdləri göstərin.

Nə üçün belə düşünürsünüz?

Şagirdlər məktəbdə hansı qaydalara əməl etməlidirlər? Bu nə üçün vacibdir?

Məktəb qaydalarına əməl olunmadığı şəkilləri işarələyin və hər biri haqqında fikrinizi izah edin.

Dərsə gecikən zaman necə davranmaq lazımdır? İşarələyin.

- *Üzr istəyib içəri girmək*
- *Evə qayıtmaq*
- *Növbəti dərsin başlamasını gözləmək*

GƏLİN SEÇƏK

Məktəbdə tənəffüs zamanı şəkildəkilərdən hansını etmək olar?



Şagirdlər dərsə vaxtında gəlməli, dərsin gedişatını pozmamalı, bir-birinə qarşı diqqətli olmalıdırlar. Məktəb qaydalarına əməl etmək şagirdlərin borcudur.

4 GÜN REJİMİ



Vaxtı düzgün bölüş-dürmək uğur qazan-mağın ilk şərtidir.

gün rejimi
vaxt

Gördüklériniz haqqında danışın. Şəkillərdə pozulmuş ardıcıllığı bərpa edin. Bu ardıcıllıq necə adlanır?

Hər bir şəkildə günün hansı vaxtı olduğunu müəyyənləşdirin. Siz bu işlər üçün nə qədər vaxt ayırırsınız?

Günün hansı vaxtı olduğunu tapmaq üçün siz daha çox nədən istifadə edirsiniz?



GƏLİN OYNAYAQ

"Vaxt bölgüsü" adlı oyun oynayın. Kartlar əsasında hər işə neçə saat sərf etdiyinizi aydınlaşdırın.

Gün ərzində dərs hazırlamaq üçün nə qədər vaxt sərf etmək lazımdır?

Vaxtı ölçmək üçün ən sadə və qədim saatlardan biri qum saatıdır.

Uğur qazanmaq istəyirsinizsə, vaxtı düzgün bölməyi – oxumağa, əylənməyə, idmana vaxt ayırmağı bacarmalısınız.

5 CANLILAR VƏ CANSIZLAR



Təbiətdə çoxlu canlı və cansız varlıqlar var.

təbiət
canlı
cansız

Şəkildə gördüklərinizi haqqında danışın.

Şəkildəki canlı və cansızları seçin. Sizcə, nə üçün onların bəzilərinə canlı, bəzilərinə isə cansız deyirik?

Şəkildəki canlıları işarələyin. Onların canlı olduqlarını nə-dən bildiniz?



Ayılar bir-birindən nə ilə fərqlənir? Bəs güllər?

GƏLİN MÜŞAHİDƏ EDƏK

Təbiətdə gördüyünüz canlı və cansız varlıqları müşahidə edin, sonra da rəsm-lərini çəkin.

Təbiətdə gördüklərinizin bəziləri canlıdır. Onlar qidalanır, tənəffüs edir, çoxalır.

Bəzi varlıqlar isə canlı deyil.

6 YAŞAMAQ ÜÇÜN VACİB OLANLAR



Yaşamaq üçün canlıların bir çox şeyə ehtiyacı var.

su
hava
torpaq
Günəş

Şəkildə gördüyünüz canlılar haqqında danışın.
Sizcə, nə üçün bu bitkilər eyni tərəfə boylanır?

Canlıların böyüməsi üçün nə lazımdır?

Şəkildəki canlılara yaşamaq üçün vacib olanları seçin və boş xanaları buna uyğun rəngləyin.



Gülləri müqayisə edin. Sizcə, soldakı şəkildə gülün nəyə ehtiyacı var? Xətlərlə birləşdirin.

GƏLİN MÜŞAHİDƏ EDƏK

Gülləri iki hissəyə ayırın. Bir hissəsini güldandakı suyun içinə qoyun, digər hissəsini isə qutunun altına yerləşdirin. Gələn dərsdə güllərdə baş verən dəyişikliyi müzakirə edərsiniz.



Yaşamaq üçün canlılara hava, su, torpaq, Günəş və qida lazımdır.

7 CANLILARIN YAŞADIĞI YERLƏR



Canlılar yaşamaq üçün fərqli yerləri seçirlər.

su
quru

Şəkildə gördüklərinizi haqqında danışın.

Şəkildəki canlıların yaşadıqları yeri deyin. Bəs insan yaşamaq üçün necə yerləri seçir?

Şəkilləri canlıların yaşadıqları yerlərə uyğun birləşdirin.



GƏLİN MÜQAYİSƏ EDƏK

Sizcə, eyni canlılar fərqli şəraitdə yaşaya bilərmi? Şəkildəki canlılar yaşamaq üçün lazım olanları necə əldə edir?



Qurbağa kimi bəzi canlılar həm suda, həm də quruda yaşayır.

Canlılar qida, su, sığınacaq tapa bildikləri yerlərdə yaşayırlar.

8 CANSIZLARIN ƏLAMƏTLƏRİ



Ətrafımızda bir-birindən fərqlənən cansız varlıqlar var.

forma
ölçü
material

Şəkildə gördüklərinizi haqqında danışın.

Gördüyünüz cansız varlıqları sadalayın. Onların hansı əlamətlərə – rəngə, ölçüyə, formaya malik olduğunu deyin.

Şəkildəki cansız varlıqları işarələyin. Onların cansız olduğunu nədən bildiniz?



GƏLİN MÜQAYİSƏ EDƏK

Şəkildəki qaşıqları bir-birindən hansı əlamətlərinə görə fərqləndirə bilərsiniz?

Bəs süd qablarını?



Heç bilirsiniz ki, işlətdiyimiz kağız ağacdan hazırlanır?

Kağız və plastik qablar toplanaraq təkrar istehsal edilə bilər.

Ətrafınızda müxtəlif əşyalar var. Onlar ölçüsünə, materialına, çəkisinə, rənginə görə bir-birindən fərqlənir.

9 FƏSİLLƏR



Təbiət çox dəyişkəndir.

fəsil
yağış, qar
dolu, külək

Gördüklériniz haqqında danışın. Sizcə, şəkillərdə dəyişən nədir?

Bu dəyişikliyin səbəbini necə izah edə bilərsiniz? Fəsillərin dəyişməsi ilə canlıların həyatında hansı dəyişikliklər baş verir?

Sizcə, oğlan havaya uyğun olaraq hansı geyimi geyinmə-lidir?

Aşağıdakı geyimlərin hansı fəsildə geyinildiyini söyləyin.

GƏLİN ARAŞDIRAQ



Təsəvvür edin ki, fənər Günəşdir. Onun işığının qlobusa düşdüyü yerdə gündüz olacaq, yoxsa gecə?

Dünyada elə yerlər var ki, orada fəsillərin dəyişməsi hiss olunmur. Məsə-lən, Antarktidada həmişə şaxtadır.

Təbiət fəsillərdən asılı olaraq dəyişir.

10 TƏBİƏT



Yer kürəsinin böyük bir hissəsini su təşkil edir.

dağ
təpə
göl, çay

Şəkildə gördüklərinizi haqqında danışın.

Dağı təpədən, çayı göldən necə fərqləndirmək olar?

Şəkillərdə gördüyünüz su hövzələrini işarələyin. Onlardan hansı daha böyükdür? Bəs hansının suyu içməli deyil?



Yaşadığınız bölgədə hansı çay, göl və dağ var?

Aşağıda dağ, təpə, düzənlik, çay şəkillərini tapın və adlandırın.

Azərbaycanın ən yüksək dağ zirvəsi **Bazardüzü**, ən uzun çayı **Kür çayıdır**.

Yer kürəsi çaylar, göllər, dağlar və təpələrlə zəngindir. Onlar əlamətlərinə görə bir-birindən fərqlənir.

11 TƏMİZ ƏTRAF MÜHİT



Biz sağlam yaşamağı seçirik.

təmizlik
sağlamlıq
mühit

Yaşamaq üçün hansı otağı seçərdiniz?

Sizcə, təmiz ətraf mühit necə olmalıdır?

Təmiz ətraf mühit yarat-maq üçün siz nə edirsiniz?

Sizcə, hansı şəkillərdə ətraf mühitə ziyan vurulur? İşarələyin və səbəbini izah edin.

GƏLİN DÜZƏLDƏK

İstifadə edilmiş plastik qabları atmayın. Onlardan qələmqabı düzəldin.

Sizcə, plastik qablardan daha nə hazırlamaq olar?



Siz təbiətin bir parçasısınız. Onu qorumaqla həm digər canlıları, həm də öz sağlamlığınızı qoruyursunuz.

GƏLİN QUŞ YUVASI DÜZƏLDƏK

Birlikdə “Sərçə” mahnısını dinləyək.

Musiqisi ***Oqtay Zülfüqarovun***, sözləri ***Teymur Elçinindir***.

İstifadə etmək üçün: *plastik qablar, karton qutu, yapışqan, çubuq, sulu boya, rəngli qələmlər, fırça, kağızkəsən bıçaq, quru ot, buğda* və s.

Payızda quşların bir çoxu isti ölkələrə köçür. Amma elə quşlar var ki, qışda da heç yerə uçub getmir. Məsələn, sərçələr. Siz onların həyatını asanlaşdırmaq üçün quş yuvası düzəldib məktəbinizin həyətindən asa bilərsiniz. Bunun üçün plastik qablardan və ya karton qutulardan istifadə etmək olar.

Qruplara bölünün. Hər bir qrup ayrıca quş yuvası hazırlasın.

1-ci addım. Yuva hazırlamaq üçün içi boş süd qabı, yaxud plastik su qabı seçin. Qutunun üzərində qələmlə qanad, gözlər, quşun içəriyə girə bilməsi üçün qapı şəkli çəkin. Cizgilənmiş yerləri müəlliminizin və ya böyüklərin köməyi ilə kəsin.

2-ci addım. Qutunu rəngləyin və quşa bənzəməsinə çalışın. İstədiyiniz rəngdən istifadə edə bilərsiniz.

3-cü addım. Qutunun ön hissəsinə kiçik bir çubuq parçası keçirin. Bu, sərçənin üstünə qonması üçündür.

4-cü addım. Yuvanın içinə quru ot və buğda tökün. Artıq onu məktəbin həyətinə çıxarıb müəllimin köməyi ilə ağac budağından asa bilərsiniz.

12 HÜQUQLAR



Dövlətin bizə verdiyi hüquqlar var.

hüquq
uşaq

Şəkildə gördüklərinizi haqqında danışın.

Sizcə, şəkillərdə uşaqların hansı hüquqları təsvir edilib?

Hansı şəkildə uşaqların hüquqları pozulub? Cəmiyyətimizdə bu cür hallara rast gəlmisinizmi?

GƏLİN TƏRTİB EDƏK

Hüquqlarınızı yazın. Belə bir siyahını sinif otağının divarından asa bilərsiniz.



Hər bir uşağın qəddar və kobud münasibətdən qorunmaq hüququ var.

1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür.

Uşaqların məktəbdə oxumaq, tibbi xidmət almaq, istirahət etmək hüququ var. Hüquqlar dövlət tərəfindən qorunur.

13 DÖVLƏT RƏMZLƏRİ



Sərvətimdi, varımdı
Gerbim, himnim,
bayrağım!

bayraq
himn
gerb

Şəkildə gördüklərinizi haqqında danışın.

Dövlət rəmzləri dedikdə nə başa düşülür? Onlar haqqında nə bilirsiniz? Azərbaycan bayrağının rəngləri hansı mənanı verir?

Birlikdə Azərbaycan himnini oxuyun. Himni oxuyarkən necə dayanmaq lazımdır?

Azərbaycan Respublikasının gerbini rəngləyin.

Dünyada bir sıra ölkələrin gerbi qalxan üzərində təsvir edilib. Qalxan müdafiə rəmzidir.

GƏLİN DÜZƏLDƏK

Rəngli kağızlardan Azərbaycan bayrağı düzəldin.



Sizcə, Azərbaycan himnini başqa dildə oxumaq olarmı? Fikrinizi izah edin.

Azərbaycan Respublikasının dövlət rəmzləri bayraq, gerb və himndir. Dövlət rəmzlərinə hörmətlə yanaşmaq hər kəsin borcudur.

14 PULLAR



Azərbaycan Respublikasının pul vahidi manatdır.

pul
qəpik
manat

Şəkildə gördüklériniz haqqında danışın. Pul nə üçün istifadə olunur?

Pullar neçə cür olur? Manatdan başqa, hansı pul vahidləri haqqında eşitmisiniz? Pul harada saxlanılır?

Gündəlik cibxərcliyi ilə şəkildəkilərdən hansını almaq olar? İzah edin.

GƏLİN ARAŞDIRAQ

Aşağıdakı şəkillərə hansı pulların üzərində rast gəlmisiniz? Xətlərlə birləşdirin.



Azərbaycan manatının üzərində tariximizi, mədəniyyətimizi, təbiətimizi əks etdirən şəkillər var. Onlardan biri olan xarıbülbül, əsasən, Qarabağda bitir.

Dövlətlərin öz pul vahidi olur. Biz kağız və metal pullardan istifadə edirik.

15 BÜDCƏNİ QORUYAQ



Ailənin yaşamaq üçün büdcəyə ehtiyacı var.

büdcə
gəlir
xərc

Şəkildə gördüklərinizi haqqında danışın. Sizcə, ailənin büdcəsi necə yaranır? Gəlir və xərc nə deməkdir?



Gündəlik və gözlənilməz xərclər nədir? Ailə büdcəsinə necə qənaət edilir? Büdcədəki pullar xərclənərkən istək, arzu, yoxsa ailənin tələbatı nəzərə alınmalıdır?

Ailə büdcəsinin daimi, gündəlik xərclərini yaşıl, gözlənilməz xərclərini qırmızı qələmlə rəngləyin.

İsrafçılığı təsvir edən şəkilləri işarələyin. Sizcə, ailə büdcəsinə başqa nə cür qənaət etmək olar?



Əgər büdcəni idarə etmək sizə tapşırılsaydı, pulları nəyə xərcləyərdiniz? Sizcə, uşaqların hər istədiyi alınmalıdırmı?

Qısa məsafəli yerlərə piyada getməklə, yaxud geyiminizə qarşı səliqəli davranmaqla büdcənizə qənaət edə bilərsiniz.

Ailənin büdcəsi onun gəlirləri və xərcləri hesablanaraq müəyyən edilir.

Layihə

GƏLİN KİTABÇA TƏRTİB EDƏK

Azərbaycan Respublikasının Dövlət Himnini oxuyaq.

Musiqisi ***Üzeyir Hacıbəylinin***, sözləri ***Əhməd Cavadındır***.

İstifadə etmək üçün: *kağız, Azərbaycan bayrağının və gerbinin şəkli, himnin mətni, yapışqan, qayçı* və s.

Kitab yaratmaq dünyanın ən maraqlı işlərindən biridir. Birlikdə Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında bir kitabça yaratmağa çalışaq.

1-ci addım. Qruplara bölünün. Hər qrup dövlət rəmzləri haqqında topladığı məlumat və şəkilləri masanın üzərinə qoysun.

2-ci addım. Himnimizin mətnini və gerbimizin şəklini yapışdırmaqla, bayrağımızın şəklini çəkməklə kitabçaları tərtib edin. Hazırladığınız kitabçaları nümayiş etdirin. Unutmayın ki, bu kitabçalar sinifdə, oxu guşəsində qalacaq. Hər kəs onlarla tanış ola və dəyərləndirə bilər.

3-cü addım. İndi isə birlikdə gördüyümüz işi qiymətləndirək. Hər biriniz nümayiş edilən kitabçaların üz qabığına, tərtibatına, içində çəkilmiş şəkillərə xal verin. Verilən xallar toplansın və müəllimin verdiyi xal da əlavə edilərək qalib qrup müəyyən edilsin.

16 BİZ NECƏ DAVRANMALIYIQ



Ünsiyyət zamanı ən güclü vasitələrdən biri təbəssümdür.

ünsiyyət
davranış
nəzakət

Şəkildə gördüklərinizi haqqında danışın. Nəzakət qaydaları dedikdə nə nəzərdə tutulur?

Günün müxtəlif zamanlarında, vaxtdan asılı olaraq, necə salamlaşmalıyıq? Təşəkkür etmək üçün hansı sözlərdən istifadə olunur?

Şəkillərə əsasən, nəzakətli davranmaq üçün hansı sözlərdən istifadə edildiyini deyin. Fikrinizi izah edin.

GƏLİN ŞƏKİL ÇƏKƏK

Nəzakətli sözləri şəkillərlə təsvir edin və bura yapışdırın.



Sizcə, bizi kimsə səslədiyi zaman nə üçün “bəli” demək daha düzgündür? Bəs “yox” əvəzinə hansı sözdən istifadə edilməlidir?

İnsanlarla ünsiyyət zamanı nəzakətlə davranmaq lazımdır.

17 YANLIŞ DAVRANIŞLAR



Yanlış davranışı heç kim bəyənmir.

kobudluq
nəzakətsiz davranış

Şəkildə gördüklériniz haqqında danışın.

Sizcə, hansı uşaqlar yanlış davranırlar?

Fikrinizi izah edin.

Başqa hansı yanlış davranışlardan danışa bilərsiniz?

Şəkildəki davranışlardan hansılar yanlışdır? İşarələyin və haqqında danışın.



Dəcəl

Səhər-səhər oturmuş
Ağac üstündə bir quş.
Bir uşaq əlində daş
Gəlirdi yavaş-yavaş.
İstədi, kola yatsın,
Daşı o quşa atsın.
Quş ucaltdı səsini,
Oxudu nəğməsini.
Gülümsünüb bu zaman
Daşı gizlətdi oğlan.

Sizcə, oğlan nə üçün belə etdi?

GƏLİN YAZAQ

Etdiyiniz yanlış davranışı kağıza yazın və yoldaşlarınıza deyin.

Müəllimin verdiyi tapşırığı yerinə yetirməsəniz, ona nə cavab verərsiniz?

Kobudluq, yalançılıq yanlış davranışlardır. Bu cür davranmaqla sevgi, hörmət qazana bilməzsiniz.

18 YAXŞI XÜSUSİYYƏTLƏR



Yaxşı xüsusiyyətlər insanın bəzəyidir.

düzgünlük
xeyirxahlıq
çalışqanlıq

Şəkillərdə gördüklərinizhaqqında danışın. Sizcə, bu uşaqların hansı yaxşı xüsusiyyətlərini sadalamaq olar?

Xeyirxahlıq nədir?
Siz kimi yardımsevər insan adlandırırsınız?

Bu cizgi filmi qəhrəmanlarından hansı öz yaxşı xüsusiyyətləri ilə yadda qalıb? İşarələyin və haqqında danışın.



Çalışqan insanları daha çox nəyə bənzədirlər? İşarələyin. Siz özünüz bununla bağlı nə müşahidə etmisiniz?

GƏLİN ÇƏKƏK

Yaxşı xüsusiyyətlərinə görə bənzəmək istədiyiniz nağıl, yaxud cizgi filmi qəhrəmanlarının şəklini çəkin.

Siz bilirsiniz ki, heyvansevərlik də yaxşı xüsusiyyətlərdəndir? Heyvanlara sevgi insanları daha mərhəmətli və mülayim edir.

Düzgünlük, səmimiyyət, xeyirxahlıq kimi yaxşı xüsusiyyətlər var. Onlar insanları yanlış davranışlardan uzaqlaşdırır.

19 XOŞAGƏLMƏZ XÜSUSİYYƏTLƏR



Xoşagəlməz xüsusiyyətlərdən uzaq olaq.

yalançılıq
paxıllıq
xəbərçilik

Şəkildə gördüklériniz haqqında danışın.

Dibçəyin qırıldığını yanlış hərəkət edənin özü deməydi, bunu xəbərçilik adlandırmaq olardımı? Başqa hansı xoşagəlməz xüsusiyyətlər haqqında danışa bilərsiniz?

Şəkillərdə təsvir olunanlar haqqında danışın və hər birini aşağıdakı uyğun sözlərlə birləşdirin. Bunlardan hansılar xoşagəlməz xüsusiyyətdir?

cəsarətli qayğıkeş tamahkar ziyankar

Hansı şəkildə xoşagəlməz xüsusiyyətlərə malik şagirdlər təsvir olunub? İşarələyin və fikrinizi izah edin.

GƏLİN DÜŞÜNƏK

Sizə xoş olmayan hansı xüsusiyyətinizdən imtina etmək istəyərdiniz? Kartlara yazın və göstərin.

Əgər hansısa xoşagəlməz xüsusiyyətləriniz varsa, onları düzəltməyə çalışın.

Layihə

YURDUMUZA BAHAR GƏLİR

"Novruz gəlir, yaz gəlir" mahnısına qulaq asaq və Novruz bayramı haqqında danışaq.

Musiqisi ***Cavanşir Quliyevin***, sözləri ***Ramiz Rövşənindir***.

Novruz bayramına aid adət-ənənələrimizi sadalayın.

Novruzun əsas rəmzi olan səmə-
nini necə və nə üçün yetişdirirlər?
Sinfinizdə səməni göyərdin.

20 DİN



Dünyada müxtəlif dinlər var.

din
dini kitablar
dini bayramlar

Şəkillərdə gördükləriniz haqqında danışın.

Bu ibadətgahları bir-birindən fərqli edən nədir?
Bəs ümumi cəhətləri hansıdır?

Hansı dini kitablar haqqında eşitmisiniz?
Hansı peyğəmbərləri və dini bayramları tanıyırsınız?

Şəkillərdə göstərilənlər hansı dinlərə aiddir? Xətlərlə birləşdirin.

Xristianlıq **İslam** **Yəhudilik**

Bu nişanlar hansı dinlərin müqəddəs kitablarında və ibadətgahlarında var?



Bütün dinlər böyüyə hörmətlə, kiçiyə isə mərhəmətlə yanaşmağı öyrədir.

Ramazan bayramı haqqında bildiklərinizi danışın.

Din insanlara Allaha ibadət etməyin yollarını izah edir. Dinlər müxtəlifdir. Azərbaycan bir çox dinlərin olduğu ölkələrdən biridir.

21 İNSANLARA HÖRMƏT VƏ QAYĞI



Hörmət qazanmaq istəyirsinizsə, hörmət etməyi öyrənin.

hörmət
diqqət
yardım
qayğı

Şəkillərdə gördükləriniz haqqında danışın.

Hər iki şəkildə gördüyünüz münasibəti necə adlandırmaq olar?

Hansı şəkildə təsvir ediləni “böyüyə hörmət” adlandırmaq olar?

GƏLİN SEÇƏK

Sizcə, şəkillərdəki adamların nə üçün qayğıya ehtiyacı var?

Yaşlılara qayğı və hörmət hər bir dövlətin əsas vəzifəsidir.

Böyüklərin sizə qayğı göstərdiyini onların hansı hərəkət-lərindən hiss edirsiniz?

Özündən böyüklərə hörmət etmək, kiçiklərə isə qayğı göstərmək borcunuzdur. Hörmət və qayğı görən insan özünü daha dəyərli hiss edir.

Layihə

SEHRLİ TORBA

"Anamın köməkçisiyəm" mahnısına qulaq asaq.

Mahnıda nədən söhbət gedir?

Musiqisi və sözləri

Oqtay Zülfüqarovundur.

İstifadə etmək üçün: *torba, rəngli kağız, qayçı, yapışqan* və s.

Uşaqlar, gəlin birlikdə "Sehrli torba" adlı oyun oynayaq. Bu torbanı "Yaxşı əməllər torbası" da adlandıra bilərik.

Əvvəlcə, "Mənim hansı yaxşı xüsusiyyətlərim var?", "Yaxşı insan olmaq nə deməkdir?", "Biz hansı yaxşı əməllər edə bilərik?", "Yaxşı əməllər insana nə qazandırır?" və s. sualların cavabını tapmağa çalışaq.

1-ci addım. Uşaqlar, kim yaxşı insan olmaq istəyir? Əlinizi qaldırın. "Yaxşı vərdişlərə yiyələnmək üçün daha nə etmək olar?" sualına cavab verin.

2-ci addım. İndi də sehrli torba hazırlayaq. Evdən gətirdiyiniz torbanın üstünü istədiyiniz kimi rəngarəng bəzəyək. Siz öz yaxşı əməllərinizi balaca kağıza yazıb buraya atacaqsınız. Onun sehri də elə bundadır. Torbanı evdə, gözünüzün önündən asarsınız. Yaddan çıxarmayın ki, hər fəslin sonunda öz torbanızı gətirib sinifdə nümayiş etdirəcəksiniz.

3-cü addım. Bu gün etdiyiniz hansısa yaxşı əməl haqqında danışa bilərsiniz? Bu, həqiqətənmi, yaxşı əməldir? Birlikdə müzakirə edin.

4-cü addım. İndi də bir-birinizi qiymətləndirin. Ən yaxşı əməli edənləri seçin və alqışlayın.

22 SAĞLAM HƏYAT



Əsl xoşbəxtlik sağlamlıqdır.

təmizlik
qida
yuxu
istirahət

Şəkildə gördüklərinizi haqqında danışın. Sizcə, sağlam həyat dedikdə nə nəzərdə tutulur?

Təbiətdə olmaq sağlamlığınıza necə təsir edə bilər?
Yuxu rejiminə əməl etməsək, nə olar?

Sağlam qidalanmağınız üçün aşağıdakılardan hansı daha vacibdir? İşarələməklə göstərin.



Sizcə, susadığınız zaman nə içsəniz, daha düzgün olar? İşarələyin.

Sağlamlığınız üçün ən böyük təhlükə mikroblar və viruslardır. Unutmayın ki, mikroblar sabundan qorxur.

GƏLİN SEÇƏK

Hansı şəkildə təsvir edilənlərin sağlamlığınıza müsbət təsiri var? Nə üçün?

Sizcə, əhvalınız sağlamlığınıza necə təsir edir?

Düzgün qidalanaraq, təmizliyə, yuxu və istirahət rejiminə əməl edərək sağlam yaşaya bilərsiniz. Sağlamlığınızı qorumaq öz əlinizdədir.

23 GEYİMLƏR VƏ SAĞLAMLIQ



Havaya uyğun geyinərək sağlamlığımızı qoruyuruq.

hava şəraiti
geyim

Şəkildə gördüklərinizi haqqında danışın. Hava şəraitindən asılı olaraq şəkillərdə dəyişən nədir?

Uşaqların nə üçün belə geyindiklərinin səbəbini izah edin. Sizcə, biz niyə havaya uyğun geyinməliyik?

Havaya uyğun olaraq şəkilləri birləşdirin.



GƏLİN AYDINLAŞDIRAQ

Şəkil əsasında hava şəraitini deyin. Sabah hava necə olacaq?

Şəkillərdə hansı fəsillər təsvir olunub? Adlarını yazın və həmin fəsillərə uyğun geyimləri sadalayın.

Günəşin şüaları xeyirli olsa da, yay fəslində günün müəyyən saatlarında ondan qorunmaq lazımdır.

Hər gün evdən çıxarkən hava şəraitinə uyğun olaraq geyinməyiniz çox vacibdir. Bununla siz həm də sağlamlığınızı qoruyursunuz.

24 EHTİYATLI OLAQ



Diqqətli olmaqla həyatımızı təhlükə-dən qoruya bilərik.

şübhəli əşya
ünsiyyət
təhlükə

Şəkildə gördüklərinizi haqqında danışın.

Sizcə, olduğunuz yerdə şübhəli əşya gördükdə nə etməlisiniz?

Tanımadığınız adam-larla ünsiyyətdə necə davranmaq lazımdır?

Ehtiyatsız davranaraq zərər gördükdə kimi köməyə çağırma-lısınız?

Hansısa yad adam sizi narahat etdikdə, ilk növbədə, nə etməlisiniz? Düzgün variantı işarələyin.

- Yaxınlıqdakı adamlardan kimisə çağırmalısınız.
- Polisə zəng etməlisiniz.

- Həmin adamın çıxıb getməsini gözləməlisiniz.
- Oradan qaçıb uzaqlaşmalısınız.
- Hündürdən qışqıraraq insanların diqqətini çəkməlisiniz.

Qoçaq ol!

Gördün qonşu eyvandan
Burulub qalxır tüstü.
Yanğınsöndürənlərə
Qaç, zəng elə əlüstü.
Təcili yardım çağır
Xəstələnəndə nənə.
Onu əmanət edib,
Gedibsə anan sənə.

Görsən qonşu həyətdən
Aşıb keçən oğrunu.
Polisə zəng elə tez,
Söylə ona doğrunu.
101, 102, 103, 112
əzbər bil bu sayları.
Onların sənin üçün
Vardı xidmət payları.

GƏLİN ARAŞDIRAQ

Metroda şübhəli bir əşya gördükdə nə edərsiniz? İşarələyin.

- *Metro polisinə yaxınlaşarsınız;*
- *Çıxıb gedərsiniz;*
- *Özünüzdən böyük kiməsə deyərsiniz.*

Diqqətli və cəsarətli olmaqla həm özünüzün, həm də başqalarının həyatını xilas edə bilərsiniz.

25 TƏHLÜKƏLİ AVADANLIQLAR



Ətrafımızda həyatımızı asanlaşdıran əşyalar var.

təhlükə
alət
cihaz

Şəkildə gördüklériniz haqqında danışın. Sizcə, evdə hansı əşyalarla ehtiyatlı davranmaq lazımdır?

Elektrik avadanlıqları nə üçün təhlükəli ola bilər?

Şəkildə gördüklərinizə arasında kəsici alətləri mavi, yanğın törədə biləcək əşyaları isə qırmızı rənglə işarələyin.



Gördüklərinizdən hansı elektriklə işləyir? İşarələyin və onlarla necə ehtiyatlı davranmaq lazım olduğunu deyin.



GƏLİN ARAŞDIRAQ

Bu vasitələr nə zaman bizim köməyimizə gəlir? Araşdırın və uyğun nömrələri dairələrə yazın.





Elektriklə işləyən cihazlara yaş əllə toxunmaq olmaz! Bu zaman elektrikvurma təhlükəsi daha çoxdur.

Həyatınız üçün təhlükəli ola biləcək kəsici alətlərdən, elektrik cihazlarından istifadə edərkən ehtiyatlı olmalısınız.

26 NƏQLİYYAT NÖVLƏRİ



Nəqliyyat vasitələri həyatımızı daha rahat edir.

maşın
metro
avtobus

Şəkillərdə hansı nəqliyyat vasitələri təsvir edilib? Başqa hansı nəqliyyat vasitələrini tanıyırsınız?

Bu vasitələr həyatınızı necə asanlaşdırır? İzah edin.

Şəkildə gördüyünüz nəqliyyat vasitələrini işarələyin və adlarını sadalayın. Siz onların hansından daha çox istifadə edirsiniz?



Şəkillərdəki vasitələr hansı məqsədlə istifadə olunur? İzah edin.



Qədim zamanlarda müasir avtomobillərin əvəzinə fərqli nəqliyyat növlərindən istifadə edirdilər. Məsələn, fayton bunlardan biridir.

Müasir həyatımızda faytondan nə üçün istifadə edilir?

Nəqliyyat vasitələri insanların getdiyi yerə tez çatmasına kömək edir.

27 YOL HƏRƏKƏTİ QAYDALARI



Təhlükəsizliyimiz üçün yol hərəkəti qaydalarına əməl edək!

hərəkət
yol
qayda

Yol hərəkəti qaydaları nədir və hansı şəkildə ona əməl edilmir?

Svetofor nə üçündür və neçə cür olur?

Svetofor olmayan yerlərdə hərəkəti kim nizamlayır? Piyadalar və velosiped sürənlər yolun hansı hissəsində hərəkət etməlidirlər?

Şəkillərdən hansılarında metrodan istifadə qaydaları pozulub? İşarələyin və izah edin.



Verilmiş yol nişanları ilə “Olar” və “Olmaz” işarələrini birləşdirin.

Olar **Olmaz**

GƏLİN ARAŞDIRAQ

Svetoforlardan hansı piyadalar üçündür? Onların hər ikisini uyğun şəkildə rəngləyin.



SVETOFOR

Sevirəm svetoforun
Yaşıl işığı yananda.
Qırmızı yandı, qorun!
Getmə, dayan bir yanda.

Yaşıl rəng dəysə gözümə,
O səkiyə keçirəm.
Mağazadan özümə
Yaxşı kitab seçirəm.

Yol hərəkəti qaydalarına əməl etməklə həm özünüzün, həm də başqalarının təhlükəsizliyini qorumuş olacaqsınız.

28 TƏBİİ FÖVQƏLADƏ HADİSƏLƏR



Şimşək, qasırğa, tufan təbiət hadisələridir.

fövqəladə hadisələr

Şəkildə gördüklériniz haqqında danışın. Təbii fövqəladə hadisələr nə deməkdir?

Şəkildə onlardan hansılarını görürsünüz? Başqa hansı təbii hadisələr haqqında eşitmisiniz?

Təbii fəlakətlər baş verdiyi zaman özümüzlə, ilk növbədə, nə götürməliyik? İşarələyin və səbəbini izah edin.

Sizcə, şəkillərdə hansı təbiət hadisələri təsvir edilib? Xətlərlə birləşdirin.

Torpaq sürüşməsi **Daşqın** **Sel** **Meşə yanğını**

İnsanlar torpaq sürüşməsinin qarşısını ağac əkməklə, daşqın və subasmanın qarşısını isə bəndlər çəkməklə ala bilirlər.

Elə təbii fəlakətlər var ki, təbiətə də, insanlara da ziyan vurur. İnsanlar bu cür hadisələrin qarşısını əvvəlcədən almağa çalışırlar.

29 QƏZALARDAN MÜDAFİƏ



İnsanlar bəzən həyəcan siqnalı eşidə bilərlər.

qəza
siqnal
su
qum

Şəkildə gördüklərinizi haqqında danışın. Bu cür qəzalar baş verəndə necə davranmalısınız?

Qəzalar zamanı xilasedicilərin vəzifəsi nədir?

Şəkildəki yanğın-söndürənin əlindəki əşya nə üçündür?

Sizcə, təbiət hadisələri ilə qəzalar arasında hansı fərq var?

Şəkildə gördüklərinizdən hansılar yanğın zamanı sizə lazım ola bilər? İşarələyin.



Məktəbdə yanğın təhlükəsi olduğu zaman:

- *Həyəcanlanmayın, sakit qalmağa çalışın.*
- *Müəllimin göstərişi ilə, bir-birinizi itələmədən binadan çıxın.*
- *Əgər tüstü bürümüş yerdəsinizsə, yerlə sürünərək çıxışa doğru gedin. Aşağıda tüstü az, oksigen çox olur.*
- *Təksinizsə, öz yerinizi qışqıraraq bildirin.*

GƏLİN TOPLAYAQ

Gəlin birlikdə tibbi yardım çantasını toplayaq.



İldırım çaxarkən hündür ağaclardan, su hövzələrindən uzaqlaşmaq lazımdır. Ağac da, su da ildırımı özünə çəkdiyi üçün yaxınlıqda durmaq təhlükəlidir.

Həyəcan siqnalı hansısa qəzanın baş verdiyindən xəbər verir. Bu zaman böyüklərinizin yanından ayrılmamalı, onların dediklərinə əməl etməlisiniz.

ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Ayna Uşaq Ensiklopediyası. 2002.
2. Azərbaycan Respublikasının Konstitusiyası.
3. Əkbərov N. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. "Bərəkət" nəşriyyatı, 2010.
4. Əliyeva R., Mustafayev Q., Hacıyeva S. Ümumi ekologiya. Bakı, 2004.
5. Əliyev S.C., Hacıyeva H.M., Mikayılzadə N.C. Tibbi biliklərin əsasları. Bakı, 2004.
6. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001.
7. Qasımov M. Sağlam həyat tərzi uğrunda. Bakı, 2005.
8. Özünə və başqalarına kömək etməyi bacar (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004.
9. Şahhüseynova S. Etika. Bakı, 2009.
10. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
11. Topçiyeva Ş.Ə., Qəndilov R.T., Tağıyeva S.Ş., Qocayev Ş.Ə., Hacıyeva G.N., Məmmədova N.Ə., Hacıyeva A.T. və b. Həyati bacarıqlara əsaslanan təhsil. "Çaşıoğlu", 2007.
12. Uşaq hüquqları haqqında Konvensiya. https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf
13. Veysova Z. Fəal təlim metodları. Bakı, 2007, 156 s.

Rus dilində

1. Гин А.А., Андржеевская А.Ю. Окружающий мир. 1 класс.
2. Плешаков А.А. Окружающий мир. Учебник. 1 класс. В 2 частях.
3. Цюпка В.П. Методика преподавания естествознания в начальных классах. Белгород, 2006.
4. Чернова Г.А., Жукова Л.Г., Митюкова И.В. Методика преподавания обществознания в начальной школе. Москва, 2008.

İngilis dilində

1. Adams K. Behaviour for learning in the primary school, by Learning Matters LTD 2009, 112 p.

Dərslikdə Mirvarid Dilbazi, Xanımana Əlibəyli, Tofiq Mahmud, Sevinc Nuruqızı, İsmayıl İmanzadənin şeirlərindən istifadə edilmişdir.

Buraxılış məlumatı

HƏYAT BİLGİSİ 1

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün
Həyat bilgisi fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər:	**Nərgiz Cabbarlı**
	Gülsən Soltanova
Rəssamlar:	**Mərziyə Tağıyeva**
	Sevinc Quliyeva
	Kübra Binnətova
	Gülnar Alıyeva
	Kamila Hüseynzadə
Buraxılışa məsul	**Rafiq Kazımov**
Üz qabığının dizaynı	**Nurlan Nəhmətov**
Dizayner və səhifələyici	**Yeganə Rüstəmova**
Redaktor	**Gültəkin Cəfərova**
Korrektor	**Nübar Qarayeva**
Texniki redaktor	**Sevinc Yusifova**
Baş redaktor	**Nərgiz Cabbarlı**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Sevil İsmayılova**

© **Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-007)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 6,4. Fiziki çap vərəqi 9. Formatı 57x82 1/8.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 72.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş ____ . Tiraj 77462. Pulsuz. Bakı – 2020

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 29.07.2020

Nəşriyyat:
“Şərq-Qərb” ASC
(Bakı, AZ1143, Hüseyn Cavid küç., 111)

Çap məhsulunu istehsal edən:
“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC
(Bakı, AZ1052, F.Xoyski küç., 149)

Pulsuz